DÖVLƏT İMTAHAN MƏRKƏZİ

# DÖVLƏT İMTAHAN MƏRKƏZİ

www.dim.gov.az | www.imtahan.az | www.abiturient.az | www.mekteb.edu.az

# ABİTURİYENT

XÜSUSİ BURAXILIŞ BAKI/2017

# İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?

## IV

İXTİSAS QRUPUNUN ABİTURİYENTLƏRİ ÜÇÜN

ISSN 2223-9723

9 772223 972006 30917

İmtahan nəticələrinizi DİM-in **www.dim.gov.az** internet səhifəsindən öyrənə bilərsiniz!

- 2017

**REDAKSİYA ŞURASI**
M.M.Abbaszadə, N.Ə.Babayev, K.R.Aydazadə, F.Ş.Bədəlbəyli,
G.Ç.Gəraybəyli, A.M.Məhərrəmov, A.M.Paşayev, V.R.Misirov.

**REDAKSİYA HEYƏTİ**
M.Ə.Bədəlov (baş redaktor), İ.M.Allahverdiyev,
A.H.Bağırov, G.M.Balacanova, A.H.Batıyeva, N.N.Bayramova,
T.A.Bədəlov, M.Ə.Əkbərli, V.O.Əkbərov, N.L.Əliyev, X.S.Əzimova,
A.E.Həbibov, N.Z.Hüseynova, Ç.C.Xəlilov, X.Z.Kərimova, A.Ə.Qasımov,
S.S.Mərdanov, C.F.Orucov, O.Y.Şelaginov, H.R.Zeynalov.

Jurnal Dövlət İmtahan Mərkəzinin
rəsmi materialları əsasında hazırlanmışdır.

**Dil və üslub üzrə redaktorlar:**
Ç.İ.Rüstəmov, N.M.Musayev.

**Kompüter və dizayn:**
X.S.Mirzəyev, L.M.Ağayeva.

**Redaksiyanın ünvanı:**
Az1025, Bakı şəhəri, Y.Səfərov küçəsi, 27.

**Telefon/Faks:**
(+99412) 502-47-82(92) (DİM),
(+99412) 489-02-59 (Redaksiya).

**Elektron poçt:** abiturient.journal@gmail.com
**Web səhifə:** www.abiturient.az

**© DİM - «Abituriyent» - 2017**

Dövlət İmtahan Mərkəzinin rəsmi razılığı olmadan jurnalın
və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron
və ya mexaniki üsulla surətinin çıxarılması
**QADAĞANDIR!**

Çapa imzalanmışdır 25.07.2017.
Tiraj 300.

Jurnal DİM-in mətbəəsində çap olunub.

DİM - 2017

# İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?

Hörmətli abituriyentlər! Artıq seçdiyiniz ixtisas qrupu üzrə imtahan balları Dövlət İmtahan Mərkəzinin (DİM) www.dim.gov.az internet saytında elan edilmişdir. Bundan sonra müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin qarşısında öz ixtisas seçiminə bir daha nəzər salmaq, seçimini dəqiqləşdirmək və təsdiqləmək (rəsmiləşdirmək) vəzifəsi durur. Bu məqamda düzgün, ağıllı qərar qəbul etmək, öz istəyi ilə bərabər mövcud müsabiqə vəziyyətinin reallıqlarını – ixtisaslar üzrə plan yerlərini, müsabiqədə iştirak edən abituriyentlərin imtahan nəticələrinin bal intervalları üzrə paylanmasını, öz fərdi imtahan göstəricilərinin bu sıralamadakı yerini, həmçinin ötən illərin tələbə qəbulu müsabiqəsində ayrı-ayrı ixtisaslar üzrə formalaşmış keçid ballarını nəzərə almaq seçimin uğurlu olmasına müsbət təsir göstərə bilər. Odur ki, sizin düzgün istiqamət götürməyinizə kömək üçün, öncə 2017/2018-ci tədris ili üçün respublika ali təhsil müəssisələrinin IV ixtisas qrupuna Azərbaycan və rus bölmələri, hər iki bölmənin birgə müsabiqəsi üzrə tələbə qəbulu planı və dövlət sifarişi üzrə yerlərin sayı təqdim edilir (bax: cədvəl 1). **Dövlət sifarişi** ali təhsil müəssisələrində dövlət büdcəsi vəsaiti hesabına təhsil alması nəzərdə tutulan tələbələrin sayıdır. Dövlət sifarişinin yerinə yetirilməsində dövlət ali təhsil müəssisələri ilə bərabər özəl ali təhsil müəssisələri də iştirak edir. Dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla qəbul aparılmasından asılı olmayaraq qəbul planında yerlərin ümumi sayı göstərilib. Xatırladaq ki, hər bir ixtisas üzrə dövlət sifarişi əsasında ayrılmış yerlərin sayı və dövlət sifarişinin yerinə yetirilməsində iştirak edən ali təhsil müəssisələrinin siyahısı və ayrı-ayrı

DİM - 2017

ixtisasların ali məktəblər üzrə plan yerlərinin sayı, onların kodları, təhsil formaları (əyani, qiyabi) və təhsil haqqının məbləği "Abituriyent" jurnalının 2017-ci il 4-cü nömrəsində dərc olunub.

*Cədvəl 1*

| Qəbul planı | | | | Dövlət sifarişi |
|---|---|---|---|---|
| Azərbaycan bölməsi | Rus bölməsi | Birgə | Cəmi | |
| 2755 | 280 | 185 | 3220 | 1385* |

* Kimya və Psixologiya ixtisaslarının hər biri üçün dövlət sifarişi üzrə ayrılmış 25 yerin müsabiqəsində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialına qəbul üçün sənəd vermiş abituriyentlər də iştirak edirlər.

Müalicə işi ixtisası üçün dövlət sifarişi üzrə ayrılmış 100 yerin müsabiqəsində İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialına qəbul üçün sənəd vermiş abituriyentlər də iştirak edirlər.

İndi sizə ixtisas seçimində iştirak etmək üçün müəyyən edilmiş müsabiqə şərtləri barədə məlumatları təqdim edirik. Ancaq əvvəlcə abituriyentlər arasında bəzən düzgün anlaşılmayan bir məsələyə aydınlıq gətirmək istəyirik. Müsabiqədə iştirak etmək üçün tələb olunan minimal bal həddi ilə hər hansı ixtisasa keçid balı arasında fərq varmı, yoxsa bunlar eynidir? Əlbəttə, bunlar tamamilə fərqli anlayışlardır. **Müsabiqə şərti** DİM tərəfindən bu və ya digər ixtisas qrupu, yaxud ixtisas üzrə müsabiqəyə buraxılmaq üçün qoyulan minimal tələbdir. Bu o deməkdir ki, hər bir qrup üzrə ixtisasların müsabiqəsində yalnız tələb olunan müsabiqə şərtlərini ödəmiş abituriyentlər iştirak edə bilərlər. Tutaq ki, cari ildə IV ixtisas qrupunda imtahan verən hər hansı abituriyent 265 bal toplayıb. Lakin onun istənilən iki və ya daha çox fəndən nisbi balları 10-dan azdır. Bu halda mövcud müsabiqə şərtini yerinə

DİM - 2017

yetirmədiyinə görə (Azərbaycan Dövlət Aqrar Universitetinin *"Baytarlıq", "Su bioehtiyatları və akvabitkilər", "Ekologiya", "Əczaçılıq",* Naxçıvan Dövlət Universitetinin *"Baytarlıq"* və *2 saylı cədvəldə qeyd olunan ixtisaslar* istisna olmaqla) onun müsabiqədə iştirak etmək hüququ olmayacaq. **Keçid balı** isə müsabiqə aparıldıqdan sonra hər ixtisas üzrə ayrı-ayrılıqda formalaşan və müvafiq ixtisasa ən aşağı balla qəbul olan abituriyentin balına bərabər olan göstəricidir. Keçid balı müəyyən ixtisas üzrə müsabiqədə iştirak edən abituriyentlərin sayı, həmin ixtisas üzrə plan yerləri və abituriyentlərin imtahan nəticələrindən asılı olur. Fərz edək ki, hər hansı ixtisas üzrə qəbul planı 35 yerdən ibarətdir. Həmin ixtisası ərizəsində müsabiqə şərtlərini ödəmiş 185 nəfər göstərib. Bu zaman həmin 185 nəfərdən ən yüksək bal toplayan 35 abituriyent bu ixtisasa qəbul edilir və 35-ci abituriyentin balı həmin ixtisas üzrə formalaşmış keçid balı olur.

Bu il IV qrup üzrə ixtisas seçimində ümumi balı 200-dən, hər hansı bir imtahan fənni istisna olmaqla qalan dörd imtahan fənninin hər biri üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilərlər.

Dövlət ali təhsil müəssisələrinin tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsində ingilis dili fənni üzrə attestat qiyməti "4" və ya "5" olan abituriyentlər iştirak edə bilərlər.

Aşağıdakı cədvəldə qeyd olunan ixtisaslar və ali təhsil müəssisələri üzrə ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən az olmayan abituriyentlər buraxılır (fənlər üzrə nisbi bal məhdudiyyəti tətbiq olunmur):

***Cədvəl 2***

| | |
|---|---|
| Baytarlıq | Lənkəran Dövlət Universiteti |
| Ekologiya | Lənkəran Dövlət Universiteti<br>Azərbaycan Kooperasiya Universiteti |

DİM - 2017

Azərbaycan Dövlət Aqrar Universitetinin "Baytarlıq", "Su bioehtiyatları və akvabitkilər", "Ekologiya", "Əczaçılıq" ixtisaslarının və Naxçıvan Dövlət Universitetinin "Baytarlıq" ixtisasının həm dövlət sifarişi üzrə, həm də ödənişli əsaslarla ayrılmış yerlərinin müsabiqəsində ümumi balı 150-dən az olmayan abituriyentlər iştirak edə bilərlər (fənlər üzrə cavablara nisbi bal məhdudiyyəti tətbiq olunmur).

Dövlət sifarişi əsasında ayrılmış yerlərin ixtisas seçimində ümumi balı 250-dən və hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilərlər.

Ümumi balı 350 və daha çox olan abituriyentlərin ixtisas seçiminə buraxılmaları üçün onların fənlər üzrə cavablarına nisbi bal məhdudiyyəti tətbiq olunmur. Bu şərt dövlət sifarişi əsasında ayrılan yerlər üzrə müsabiqəyə şamil olunmur.

*Test imtahanında topladığı ümumi balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:*

- *təhsil haqqında sənədə (attestata) "Tədris dili", "Ədəbiyyat", "Xarici dil", "Riyaziyyat", "Azərbaycan tarixi", "Ümumi tarix", "Fizika", "Kimya", "Biologiya", "Coğrafiya" fənləri üzrə yazılmış yekun qiymətlərin ədədi ortası;*
- *xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanının yekun nəticəsi (bal);*
- *qəbul imtahanının əsas fənləri üzrə nisbi balların cəmi;*
- *qəbul imtahanının əsas fənləri üzrə düzgün cavabların sayının cəmi;*
- *qəbul imtahanı fənlərinin üstünlük dərəcəsini nəzərə almaqla həmin fənlərdən ayrılıqda toplanılan nisbi balların miqdarı;*
- *qəbul imtahanının bütün fənləri üzrə bütövlükdə düzgün cavabların sayı;*
- *qəbul imtahanı fənlərinin üstünlük dərəcəsini nəzərə almaqla ayrılıqda həmin fənlər üzrə düzgün cavabların sayı.*

DİM - 2017

Əziz abituriyentlər, bilirik ki, sizi ötən illərin tələbə qəbulu müsabiqəsində ayrı-ayrı ixtisaslar üzrə formalaşmış keçid balları da maraqlandırır. Bu da təbiidir, çünki onlar ixtisas seçimi zamanı düzgün istiqamət götürməkdə sizin üçün oriyentir rolunu oynaya bilər. Yuxarıda qeyd etdiyimiz kimi, ayrı-ayrı ixtisaslar üzrə minimal keçid balları müvafiq ixtisası öz ərizəsində göstərən abituriyentlərin sayı, ixtisas üzrə plan yerləri və abituriyentlərin imtahan nəticələri əsasında formalaşır. Bu göstəricilərə əsasən hər il keçid ballarında müəyyən dəyişmə müşahidə olunsa da, oxşar, təkrarlanan meyillər, tendensiyalar da özünü göstərir. Odur ki, sizə 2016-cı ilin tələbə qəbulu müsabiqəsində formalaşmış keçid balları ilə tanış olmağı məsləhət görürük. Həmin ilin tələbə qəbulu müsabiqəsində ali təhsil müəssisələrinin ixtisasları üzrə formalaşmış keçid balları "Abituriyent" jurnalının 2017-ci il 2-ci nömrəsində və http://dim.gov.az/exam/bachelor/minimal-bal/ internet ünvanında təqdim olunub.

İmtahan nəticələrinə əsasən 3084 abituriyent (Azərbaycan Dövlət Aqrar Universitetinin *"Baytarlıq"*, *"Su bioehtiyatları və akvabitkilər"*, *"Ekologiya"*, *"Əczaçılıq"*, Naxçıvan Dövlət Universitetinin *"Baytarlıq"* və *2 saylı cədvəldə qeyd olunan ixtisaslar* istisna olmaqla) müsabiqədə iştirak etmək hüququ əldə etmişdir. Onların topladıqları balların paylanması bal intervalları üzrə 3-cü cədvəldə təqdim edilir:

DİM - 2017

**IV ixtisas qrupunda müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan ballarının paylanması**

*Cədvəl 3*

| Bal interval-ları | Azərbaycan bölməsi üzrə | | Rus bölməsi üzrə | | Bütövlükdə | |
|---|---|---|---|---|---|---|
| | Abituri-yentlərin sayı | Abituri-yentlərin cəmi sayı | Abituri-yentlərin sayı | Abituri-yentlərin cəmi sayı | Abituri-yentlərin sayı | Abituri-yentlərin cəmi sayı |
| 690 - 700 | 18 | 18 | 0 | 0 | 18 | 18 |
| 680 - 689 | 27 | 45 | 4 | 4 | 31 | 49 |
| 670 - 679 | 41 | 86 | 2 | 6 | 43 | 92 |
| 660 - 669 | 71 | 157 | 6 | 12 | 77 | 169 |
| 650 - 659 | 60 | 217 | 6 | 18 | 66 | 235 |
| 640 - 649 | 61 | 278 | 6 | 24 | 67 | 302 |
| 630 - 639 | 53 | 331 | 8 | 32 | 61 | 363 |
| 620 - 629 | 58 | 389 | 7 | 39 | 65 | 428 |
| 610 - 619 | 48 | 437 | 5 | 44 | 53 | 481 |
| 600 - 609 | 69 | 506 | 6 | 50 | 75 | 556 |
| 590 - 599 | 57 | 563 | 7 | 57 | 64 | 620 |
| 580 - 589 | 56 | 619 | 4 | 61 | 60 | 680 |
| 570 - 579 | 75 | 694 | 8 | 69 | 83 | 763 |
| 560 - 569 | 79 | 773 | 3 | 72 | 82 | 845 |
| 550 - 559 | 62 | 835 | 6 | 78 | 68 | 913 |
| 540 - 549 | 55 | 890 | 8 | 86 | 63 | 976 |
| 530 - 539 | 62 | 952 | 12 | 98 | 74 | 1050 |
| 520 - 529 | 56 | 1008 | 10 | 108 | 66 | 1116 |
| 510 - 519 | 46 | 1054 | 9 | 117 | 55 | 1171 |
| 500 - 509 | 47 | 1101 | 11 | 128 | 58 | 1229 |
| 490 - 499 | 54 | 1155 | 10 | 138 | 64 | 1293 |
| 480 - 489 | 44 | 1199 | 6 | 144 | 50 | 1343 |
| 470 - 479 | 54 | 1253 | 9 | 153 | 63 | 1406 |
| 460 - 469 | 56 | 1309 | 8 | 161 | 64 | 1470 |
| 450 - 459 | 54 | 1363 | 3 | 164 | 57 | 1527 |
| 440 - 449 | 56 | 1419 | 4 | 168 | 60 | 1587 |

DİM - 2017

*Cədvəl 3 (ardı)*

| Bal interval-ları | Azərbaycan bölməsi üzrə | | Rus bölməsi üzrə | | Bütövlükdə | |
|---|---|---|---|---|---|---|
| | Abituri-yentlərin sayı | Abituri-yentlərin cəmi sayı | Abituri-yentlərin sayı | Abituri-yentlərin cəmi sayı | Abituri-yentlərin sayı | Abituri-yentlərin cəmi sayı |
| 430 - 439 | 50 | 1469 | 7 | 175 | 57 | 1644 |
| 420 - 429 | 64 | 1533 | 9 | 184 | 73 | 1717 |
| 410 - 419 | 51 | 1584 | 9 | 193 | 60 | 1777 |
| 400 - 409 | 52 | 1636 | 2 | 195 | 54 | 1831 |
| 390 - 399 | 36 | 1672 | 11 | 206 | 47 | 1878 |
| 380 - 389 | 49 | 1721 | 9 | 215 | 58 | 1936 |
| 370 - 379 | 58 | 1779 | 5 | 220 | 63 | 1999 |
| 360 - 369 | 59 | 1838 | 9 | 229 | 68 | 2067 |
| 350 - 359 | 50 | 1888 | 10 | 239 | 60 | 2127 |
| 340 - 349 | 46 | 1934 | 6 | 245 | 52 | 2179 |
| 330 - 339 | 54 | 1988 | 7 | 252 | 61 | 2240 |
| 320 - 329 | 55 | 2043 | 10 | 262 | 65 | 2305 |
| 310 - 319 | 58 | 2101 | 14 | 276 | 72 | 2377 |
| 300 - 309 | 60 | 2161 | 5 | 281 | 65 | 2442 |
| 290 - 299 | 64 | 2225 | 13 | 294 | 77 | 2519 |
| 280 - 289 | 58 | 2283 | 5 | 299 | 63 | 2582 |
| 270 - 279 | 42 | 2325 | 10 | 309 | 52 | 2634 |
| 260 - 269 | 52 | 2377 | 11 | 320 | 63 | 2697 |
| 250 - 259 | 46 | 2423 | 4 | 324 | 50 | 2747 |
| 240 - 249 | 62 | 2485 | 13 | 337 | 75 | 2822 |
| 230 - 239 | 56 | 2541 | 10 | 347 | 66 | 2888 |
| 220 - 229 | 50 | 2591 | 10 | 357 | 60 | 2948 |
| 210 - 219 | 67 | 2658 | 4 | 361 | 71 | 3019 |
| 200 - 209 | 58 | 2716 | 7 | 368 | 65 | 3084 |

**Qeyd:** 2016-cı ildə I-IV ixtisas qruplarında müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan ballarının paylanması cədvəllərini **http://dim.gov.az/exam/bachelor/** internet ünvanından yükləyə bilərsiniz.

DİM - 2017

**Azərbaycan Dövlət Aqrar Universitetinin *"Baytarlıq"*, *"Su bioehtiyatları və akvabitkilər"*, *"Ekologiya"*, *"Əczaçılıq"*, Naxçıvan Dövlət Universitetinin *"Baytarlıq"* və *2 saylı cədvəldə qeyd olunan ixtisaslar* üzrə müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan ballarının paylanması**

*Cədvəl 4*

| Bal interval-ları | Azərbaycan bölməsi üzrə | | Rus bölməsi üzrə | | Bütövlükdə | |
|---|---|---|---|---|---|---|
| | Abituri-yentlərin sayı | Abituri-yentlərin cəmi sayı | Abituri-yentlərin sayı | Abituri-yentlərin cəmi sayı | Abituri-yentlərin sayı | Abituri-yentlərin cəmi sayı |
| 690 - 700 | 18 | 18 | 0 | 0 | 18 | 18 |
| 680 - 689 | 27 | 45 | 4 | 4 | 31 | 49 |
| 670 - 679 | 41 | 86 | 2 | 6 | 43 | 92 |
| 660 - 669 | 71 | 157 | 6 | 12 | 77 | 169 |
| 650 - 659 | 60 | 217 | 6 | 18 | 66 | 235 |
| 640 - 649 | 61 | 278 | 6 | 24 | 67 | 302 |
| 630 - 639 | 53 | 331 | 8 | 32 | 61 | 363 |
| 620 - 629 | 58 | 389 | 7 | 39 | 65 | 428 |
| 610 - 619 | 48 | 437 | 5 | 44 | 53 | 481 |
| 600 - 609 | 69 | 506 | 6 | 50 | 75 | 556 |
| 590 - 599 | 57 | 563 | 7 | 57 | 64 | 620 |
| 580 - 589 | 56 | 619 | 4 | 61 | 60 | 680 |
| 570 - 579 | 75 | 694 | 8 | 69 | 83 | 763 |
| 560 - 569 | 79 | 773 | 3 | 72 | 82 | 845 |
| 550 - 559 | 62 | 835 | 6 | 78 | 68 | 913 |
| 540 - 549 | 55 | 890 | 8 | 86 | 63 | 976 |
| 530 - 539 | 62 | 952 | 12 | 98 | 74 | 1050 |
| 520 - 529 | 56 | 1008 | 10 | 108 | 66 | 1116 |
| 510 - 519 | 46 | 1054 | 9 | 117 | 55 | 1171 |
| 500 - 509 | 47 | 1101 | 11 | 128 | 58 | 1229 |
| 490 - 499 | 54 | 1155 | 10 | 138 | 64 | 1293 |
| 480 - 489 | 44 | 1199 | 6 | 144 | 50 | 1343 |
| 470 - 479 | 54 | 1253 | 9 | 153 | 63 | 1406 |
| 460 - 469 | 56 | 1309 | 8 | 161 | 64 | 1470 |
| 450 - 459 | 54 | 1363 | 3 | 164 | 57 | 1527 |

DİM - 2017

*Cədvəl 4 (ardı)*

| Bal interval-ları | Azərbaycan bölməsi üzrə | | Rus bölməsi üzrə | | Bütövlükdə | |
|---|---|---|---|---|---|---|
| | Abituri-yentlərin sayı | Abituri-yentlərin cəmi sayı | Abituri-yentlərin sayı | Abituri-yentlərin cəmi sayı | Abituri-yentlərin sayı | Abituri-yentlərin cəmi sayı |
| 440 - 449 | 56 | 1419 | 4 | 168 | 60 | 1587 |
| 430 - 439 | 50 | 1469 | 7 | 175 | 57 | 1644 |
| 420 - 429 | 64 | 1533 | 9 | 184 | 73 | 1717 |
| 410 - 419 | 51 | 1584 | 9 | 193 | 60 | 1777 |
| 400 - 409 | 52 | 1636 | 2 | 195 | 54 | 1831 |
| 390 - 399 | 36 | 1672 | 11 | 206 | 47 | 1878 |
| 380 - 389 | 49 | 1721 | 9 | 215 | 58 | 1936 |
| 370 - 379 | 58 | 1779 | 5 | 220 | 63 | 1999 |
| 360 - 369 | 59 | 1838 | 9 | 229 | 68 | 2067 |
| 350 - 359 | 50 | 1888 | 10 | 239 | 60 | 2127 |
| 340 - 349 | 46 | 1934 | 6 | 245 | 52 | 2179 |
| 330 - 339 | 54 | 1988 | 7 | 252 | 61 | 2240 |
| 320 - 329 | 55 | 2043 | 10 | 262 | 65 | 2305 |
| 310 - 319 | 58 | 2101 | 14 | 276 | 72 | 2377 |
| 300 - 309 | 60 | 2161 | 5 | 281 | 65 | 2442 |
| 290 - 299 | 64 | 2225 | 13 | 294 | 77 | 2519 |
| 280 - 289 | 58 | 2283 | 5 | 299 | 63 | 2582 |
| 270 - 279 | 42 | 2325 | 10 | 309 | 52 | 2634 |
| 260 - 269 | 52 | 2377 | 11 | 320 | 63 | 2697 |
| 250 - 259 | 47 | 2424 | 4 | 324 | 51 | 2748 |
| 240 - 249 | 62 | 2486 | 13 | 337 | 75 | 2823 |
| 230 - 239 | 56 | 2542 | 10 | 347 | 66 | 2889 |
| 220 - 229 | 50 | 2592 | 10 | 357 | 60 | 2949 |
| 210 - 219 | 69 | 2661 | 4 | 361 | 73 | 3022 |
| 200 - 209 | 61 | 2722 | 7 | 368 | 68 | 3090 |
| 190 - 199 | 55 | 2777 | 11 | 379 | 66 | 3156 |
| 180 - 189 | 54 | 2831 | 8 | 387 | 62 | 3218 |
| 170 - 179 | 62 | 2893 | 13 | 400 | 75 | 3293 |
| 160 - 169 | 62 | 2955 | 7 | 407 | 69 | 3362 |
| 150 - 159 | 80 | 3035 | 13 | 420 | 93 | 3455 |

DİM - 2017

3-cü cədvəldə qeyd olunmuş "Abituriyentlərin cəmi sayı" sütunundakı rəqəmlər, balları ən yüksək bal intervalından (690-700) başlayaraq cari bal intervalına qədər olan diapazonda yerləşən abituriyentlərin sayını göstərir. Bu diapazona cari bal intervalı da daxildir. Bəs, cari bal intervalı dedikdə nə nəzərdə tutulur? Fərz edək ki, Azərbaycan bölməsində abituriyent 645 bal toplayıb. Bu abituriyentin topladığı bal 640-649 intervalında yerləşir. Bu interval həmin abituriyent üçün cari bal intervalı hesab olunur. 2-ci cədvəldə Azərbaycan bölməsi üzrə 640-649 bal intervalında müsabiqədə iştirak edən abituriyentlərin sayı 61 nəfərdir. Bu halda 640-dan çox bal toplayaraq müsabiqədə iştirak edən abituriyentlərin sayını təyin etmək üçün balları 640-649, 650-659, 660-669, 670-679, 680-689 və 690-700 intervallarında yerləşən abituriyentlərin saylarını cəmləmək lazımdır: 61+60+71+41+27+18=278. 2-ci cədvəlin cari bal intervalına uyğun olan sətrində "Abituriyentlərin cəmi sayı" sütununda məhz həmin göstərici təqdim edilib.

---

## Qəbul Qaydalarından çıxarışlar

- İxtisas seçmək hüququ olan abituriyent ali təhsil müəssisələrinin imtahan verdiyi ixtisas qrupuna (qruplarına) aid olan 15-ə qədər ixtisas kodunu qeyd edə bilər.
- Dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla qəbul aparılmasından asılı olmayaraq, ali təhsil müəssisələrinin ixtisaslarının siyahısında hər bir ixtisas üzrə ümumi plan yerləri təqdim edilmişdir (bax: "Abituriyent" jurnalı №4, səh. 11-32). Hər bir ixtisas üzrə dövlət sifarişi əsasında ayrılmış yerlərin sayı və dövlət sifarişinin yerinə yetirilməsində iştirak edən ali təhsil müəssisələrinin siyahısı ayrıca cədvəldə verilmişdir (bax: "Abituriyent" jurnalı №4, səh. 33-42).

DİM - 2017

- Abituriyent ixtisas seçərkən bu ixtisas üzrə dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla təhsil almaq istədiyini qeyd etməlidir. Hər hansı bir ixtisas üzrə həm dövlət sifarişi, həm də ödənişli əsaslarla olan yerlərin müsabiqəsində iştirak etmək istəyən abituriyent həmin ixtisasın kodunu ərizəyə iki dəfə daxil etməli və ayrılıqda bu ixtisas üzrə təhsilini dövlət sifarişi əsasında və ödənişli əsaslarla almaq istədiyini qeyd etməlidir. İxtisas kodlarını, onların sayını və ardıcıllığını abituriyent özü sərbəst şəkildə müəyyənləşdirir.
- Dövlət sifarişi üzrə ayrılmış yerləri seçmək hüququ əldə etmək üçün DİM tərəfindən qoyulan tələbləri ödəyə bilməyən abituriyentlər yalnız ödənişli əsaslarla olan yerlərin müsabiqəsində iştirak edə bilərlər.
- Dövlət hesabına ali təhsil almış abituriyentlər dövlət sifarişi üzrə ayrılmış yerləri seçə bilməzlər.
- Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, qüvvədə olan qanunvericilikdə və dövlətlərarası razılaşmalarda digər hallar nəzərdə tutulmayıbsa, dövlət sifarişi üzrə ayrılmış yerləri seçə bilməzlər.
- İxtisas seçimi **bütün ixtisas qrupları üzrə iyulun 29-dan avqustun 10-dək internet vasitəsilə** aparılacaqdır. Müsabiqəyə yalnız həmin müddətdə ixtisasları seçib öz elektron ixtisas seçimi ərizələrinə daxil edərək təsdiq etmiş abituriyentlər buraxılacaq.

DİM - 2017

*Hörmətli abituriyentlər!*

*İxtisas seçimi və elektron ixtisas seçimi ərizəsinin doldurulması qaydaları ilə tanış olmaq üçün sizə “Abituriyent” jurnalının 2017-ci il 4-cü nömrəsini diqqətlə oxumağı məsləhət görürük.*

***Sizə düzgün ixtisas seçimi və müsabiqədə uğurlar arzu edirik!***

DİM - 2017

# Abituriyentlərin nəzərinə!

☑ İxtisas seçimi **bütün ixtisas qrupları üzrə iyulun 29-dan avqustun 10-dək internet vasitəsilə** aparılacaq. Müsabiqəyə yalnız həmin müddətdə ixtisasları seçib öz elektron ixtisas seçimi ərizələrinə daxil edərək təsdiq etmiş abituriyentlər buraxılacaq.

☑ Tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələri elan olunduqdan sonra internet vasitəsilə aparılacaq. İxtisas seçimi elanı, qəbul aparılan ixtisaslar, plan yerləri və müsabiqə şərtləri "Abituriyent" jurnalının 5-ci nömrəsində dərc olunacaq.

☑ Təhsilalma formasından asılı olmayaraq, hər hansı bir ixtisasa yerləşdirilmiş abituriyent tələb olunan sənədləri DİM tərəfindən müəyyən edilən müddətdə qəbul oldunduğu təhsil müəssisəsinə təqdim etməklə qeydiyyatdan keçməlidir. Bu zaman ali təhsil müəssisəsinə dövlət sifarişi əsasında qəbul olan şəxslə (təhsilalanla) həmin təhsil müəssisəsi arasında müqavilə bağlanır. Müqavilə mətninin şərtləri "Abituriyent" jurnalının 4-cü nömrəsində təqdim olunub.

☑ I, II, III və IV qruplar üzrə abituriyentlərin imtahan balları elan olunduqdan sonra ali təhsil müəssisələrinin ixtisaslarını seçmək hüququ qazanan

**ABİTURİYENTLƏR ÜÇÜN**

**"İxtisas seçimi zamanı nələrə diqqət yetirməli" adlı vəsaitlər nəşr edilir.**

**Vəsaitlərdə:**

- ☑ ali təhsil müəssisələrinə ümumi qəbul planı, həmçinin dövlət sifarişi üzrə yerlərin sayı;
- ☑ müsabiqə şərtləri;
- ☑ müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan ballarının paylanmasına dair məlumatlar təqdim olunur.










DİM-2017

Pərakəndə satış qiyməti
**1 manatdan** çox olmamalıdır

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İXTİSASLARINI SEÇMƏK HÜQUQU QAZANMIŞ ABİTURİYENTLƏR ÜÇÜN

**"Abituriyent" jurnalının 4-cü nömrəsində:**




- ☑ 2017/2018-ci tədris ili üçün ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı
- ☑ Müsabiqə şərtləri
- ☑ "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası
- ☑ Qəbul aparılan ixtisaslar və onların plan yerləri
- ☑ Ali təhsil müəssisələrinə dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu




# İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?

***Hörmətli abituriyentlər!***

*2016-cı il üzrə qəbul planını, bal intervalları üzrə abituriyentlərin paylanmasını builki məlumatlarla müqayisə aparmaqla cari ildə müsabiqə vəziyyəti haqqında təxmini fikir formalaşdıra bilərsiniz.*

Bu kitabçaların elektron versiyasını (pdf formatında) DİM saytının "Elektron xidmətlər" bölməsində "DİM nəşrlərinin elektron versiyalarının onlayn satışı" xidməti vasitəsilə ödəniş etməklə əldə edə bilərsiniz (Xidmətə keçid: http://eservices.dim.gov.az/ejurnal/).










